შეფასებისა და გამოცდების ეროვნული ცენტრი



# Mülki təhsil testi

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Tapşırıqların təlimatı ilə diqqətlə tanış olun, hər bir tapşırığın şərtini yaxşı düşünün və sonra cavab verin.

Testin maksimal xalı 60-dır.

Testə əməl etmək üçün sizə 5 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

## Təlimat

➢ **Seçimli cavablı tapşırıq (№1-13, 25.1-25.3)**

Hər suala ehtimal olunan dörd cavab verilir. Onlardan yalnız biri düzgündür. Cavablar vərəqində düzgün cavabın müvafiq xanasında **X** işarəsi qoyun. Başqa heç bir qeyd elektron proqramı tərəfindən qəbul edilmir. İşarə edilmiş cavabı düzəltmək istəsəniz, **X** işarəsi qoyulmuş xananı bütövlüklə rəngləyin və sonra cavabın yeni variantını işarə edin. Düzəldilmiş cavabın təkrarən seçilməsi qeyri-mümkündür. Hər tapşırığa 1 xal verilir.

1. **Dövlətlə münasibətdə hansı hüquq pozitiv hüquq sayılır?**

ა. Təhsil

ბ. Həyat

გ. Etiqad

დ. Öz fikrini ifadə etmək

**2.** **Bir tərəfdən dövlət orqanlarının və digər tərəfdən ictimai asayişin pozulmasının böyük qismini hansı hüquq sahəsi tənzimləyir?**

ა. Cinayət hüququ

ბ. İnzibati hüquq

გ. Munisipal hüquq

დ. Mülki hüquq

**3. Bazarda bir neçə iri aktorun təmsil olunduğu, buna görə də kiçik sahibkarların bazarda öz mövqeyini tutduğu şəraitə nə deyilir?**

ა. İnhisar

ბ. Oliqopoliya

გ. İnhisarçı rəqabət

დ. Azad rəqabət

**4. Kassasiya şikayətlərini Gürcüstanın ümumi məhkəmələrinin hansı dairəsi müzakirə edir?**

ა. Rayon

ბ. Şəhər

გ. Apellyasiya

დ. Ali

**5. Beynəlxalq münasibətlərdə hansı tarixi hadisə bipolyarlıq nümunəsi göstərir?**

ა. Soyuq müharibə

ბ. İkinci Dünya müharibəsi

გ. Sovet İttifaqının müstəqil dövlətlərə parçalanması

დ. Birləşmiş Millətlər Təşkilatının təsis olunması

**6.** **Merkantilizm haqqında hansı fikir düzgündür?**

ა. Məqsədi beynəlxalq bazara mümkün qədər daha çox məhsul ixrac etmək olan iqtisadi millətçilik forması

ბ. Fərdi sahibkarların roluna və onların sərbəst ticarətinə xüsusi əhəmiyyət verən

გ. Beynəlxalq bazar iqtisadiyyatında idxalatın əhəmiyyətinə başlıca diqqət verən iqtisadi liberalizm forması

დ. Başlıca məqsədi iqtisadi fəaliyyət azadlığının məhdudlaşdırılmasına və tənzimlənməsinə yönəldilmiş iqtisadi millətçilik forması

**7.** **Verilmiş sxem strateji planlaşdırma prosesinin hansı mərhələsini əks etdirir?**




ა. Vəziyyətin təhlili

ბ. Fəaliyyət planının yaradılması

გ. Məqsədlər ierarxiyasının formalaşdırılması

დ. Tərəqqinin qiymətləndirilməsi planının işlənib hazırlanması

**8. Gürcüstan qanunvericiliyinə əsasən kim qaçqın statusu olan şəxs sayıla bilər?**

ა. Başqa ölkənin təcavüzü nəticəsində həyatı üçün təhlükə törədilmiş və Gürcüstan ərazisi hüdudlarında yerini dəyişdirməyə məcbur olan Gürcüstan vətəndaşı

ბ. Ölkədəki daxili münaqişələrə görə sağlamlığı təhlükə qarşısında qalmış, lakin dövlət sərhədlərini keçməmiş, öz yaşadığı evi könüllü surətdə tərk etmiş Gürcüstanda daimi yaşayan şəxs

გ. Gürcüstan ərazisinə daxil olmuş, lakin Gürcüstanın mənşə etibarı ilə onun ölkəsi olmadığı və Gürcüstan vətəndaşı olmayan, ancaq təqib olunduğuna görə öz daimi yaşadığı ölkəni məcburən tərk etmiş şəxs

დ. Könüllü surətdə öz vətəndaşlığını yaxud daimi yaşayış yeri olan ölkəni tərk edən və yaşamaq üçün Gürcüstana keçmiş şəxs

**9. Hansı şəhərdə Beynəlxalq Cinayət Məhkəməsi yerləşir?**

ა. Cenevrədə

ბ. Qaaqada

გ. Nürnberqdə

დ. Varşavada

**10. Gürcüstanın vətəndaşlığı ilə əlaqədar hansı fikir Gürcüstan konstitusiyasına uyğun deyildir?**

ა. Gürcüstan vətəndaşının Gürcüstandan qovulması yolverilməzdir

ბ. Vətəndaşlıq təvəllüdlə və naturallaşdırma ilə əldə edilir

გ. Gürcüstan yalnız öz ərazisi hüdudlarında öz vətəndaşına himayədarlıq edir

დ. Vətəndaşlıq əldə etmək və itirmək qaydası orqanik qanunla müəyyən edilir

**11. Gürcüstan Konstitusiyasına müvafiq olaraq dövlət hakimiyyəti və özünü idarəetmə vahidlərinin səlahiyyətlərinin müəyyən edilməsi hansı prinsiplərə əsaslanır?**

ა. Subsidiarlılıq prinsipinə

ბ. Subordinasiya prinsipinə

გ. Mediasiya prinsipinə

დ. Konsolidasiya prinsipinə

**12. Cədvəl 2017-ci ilin sentyabrında Gürcüstanda illik inflyasiyanın səviyyəsi haqqında Milli Statistika Xidmətinin göstəricilərini əks etdirir:**

| İstehlak səbətinə daxil olan əmtəə və xidmət qrupları | Ötən ilin müvafiq ayı ilə müqayisədə qiymətlərdə dəyişiklik (%) | Ötən ilin müvafiq ayı ilə müqayisədə inflyasiyada qrupun xidməti (%) |
|---|---|---|
| Ərzaq və spirtsiz içkilər | 6.5 | 1.96 |
| Spirtli içkilər, tütün | 17.4 | 1.13 |
| Paltar və ayaqqabı | -4.6 | -0.17 |
| Yaşayış, su, el. enerjisi, qaz | 2.4 | 0.2 |
| Mebel, ailə əşyaları, evə qulluq edilməsi | 2.1 | 0.14 |
| Sağlamlığın mühafizəsi | 7.7 | 0.69 |
| Nəqliyyat | 14.7 | 1.84 |
| Rabitə | -1.4 | -0.06 |
| İstirahət, əyləncə və mədəniyyət | 0,0 | 0 |
| Təhsil | 1.8 | 0.09 |
| Mehmanxanalar, kafelər və restoranlar | 3.8 | 0.16 |
| Müxtəlif mallar və xidmət | 3.9 | 0.19 |
| İllik inflyasiyanın səviyyəsi, cəmi | 6.2 | |

**Cədvəlin göstəriciləri üzrə 2017-ci ilin sentyabrında, əvvəlki ilin müvafiq ayı ilə müqayisədə:**

ა. Spirtli içkilərə və tütün məhsuluna qiymətlərin ən yüksək faiz dəyişikliyi qeydə alındı, ancaq bu qrupun xidməti ərzaq və spirtsiz içkilər qrupu ilə müqayisədə azdır;

ბ. Mehmanxanaların, kafelərin və restoranlar qrupunun xidməti illik inflyasiyada istirahət, əyləncə və mədəniyyətdən daha yüksəkdir, ancaq rabitənin xidmətindən aşağıdır;

გ. İllik inflyasiyada təhsilin ximdəti nəqliyyatın xidmətindən daha azdır, ancaq bu sonuncu qrupun qiymət dəyişikliyi mebelə, ailə əşyalarına və ev xidmətinə daha az toxunmuşdur.

დ. Qiymət dəyişikliyi paltar və ayaqqabı məhsuluna sağlamlığın mühafizəsindən daha artıq toxunmuşdur.

**13. Tapşırıqda 2016-cı ildə Fridrix Ebert fondu tərəfindən həyata keçirilmiş gəncliyin tədqiqinin göstəriciləri regional baxımdan əks etdirilmişdir:**

Gənclərdə ölkəni tərk etmək istəyənlərin 38%-i başlıca motiv kimi yaşayış şəraitinin yaxşılaşdırılmasını, 17%-i isə yaxşı təhsili göstərmişdir. Regional baxımdan göstəricilər fərqlidir:

- Tbilisi: yaşayış şəraitinin yaxşılaşdırılması - 28%; daha yaxşı təhsil - 21%
- Başqa şəhərlər: yaşayış şəraitinin yaxşılaşdırılması - 41%, daha yaxşı təhsil - 14%
- Kəndlər: yaşayış şəraitinin yaxşılaşdırılması - 52%, daha yaxşı təhsil - 12%

**Göstəricilər əsasında çıxarılmış hansı nəticə düzgündür?**

ა. Kənddə təhsilin səviyyəsi Tbilisi və digər şəhərlərdən daha yüksəkdir

ბ. Yaxşı yaşayış şəraiti üçün ölkəni tərk etməyi arzulayanların ən yüksək payı kəndlərdə yaşayan gənclərə düşür

გ. Yaxşı yaşayış şəraiti üçün ölkəni tərk etməyi arzulayanların payı Tbilisidə yaşayan gəclərdə başqa şəhərlərdə olduğundan daha yüksəkdir

დ. Tbilisidə daha yaxşı təhsil üçün ölkəni tərk etməyi arzulayanların payı yaşayış şəraitini yaxşılaşdırmaq məqsədi ilə ölkəni tərk etməyi arzulayan gənclərdən daha yüksəkdir

## Təlimat

**Ardıcıllığın müəyyən edilməsi (№14)**

Tapşırıqda verilmiş siyahını göstərilən prinsip üzrə yerləşdirin. Cavabları cavablar vərəqində verilmiş xanalara yazın. Nəzərə alın ki, xanada yalnız seçilmiş cavabın müvafiq rəqəmi yazılır. Xalların maksimal miqdarı tapşırıq boyunca göstərilmişdir.

**14.** (1) Sxemdə qeyri-ardıcıl olaraq Maslousun tələblər pramidasının pillələri verilmişdir. Pillələri artım üzrə yerləşdirin:




| | | | | |
|---|---|---|---|---|
| 1* | | | | |

* Cədvəldə düzgün cavab göstərilmişdir

## Təlimat

**Uyğunluğun müəyyən edilməsi (№15-17)**

Tapşırıqda iki sütunda müxtəlif tipli informasiya verilir. Bu iki sütunda təqdim olunan informasiya arasında uyğunluğu müəyyən edin. Cavabları cavablar vərəqində verilmiş cədvələ yazın. Xalların maksimal miqdarı tapşırıq boyunca göstərilmişdir.

**15.** **(1) II sütunda verilmiş siyasi millətçilik formalarını I sütunda verilmiş və onlar üçün səciyyəvi olan əlamətlərlə uyğunlaşdırın:**

| I. Səciyyəvi əlamətlər | II. Siyasi millətçilik formaları |
|---|---|
| ა. Hər hansı millətin müstəqilliyini tanımaq, milli özünü dərketmə və milli dövlətin formalaşamasının ümumi hüquqlarına inam | 1.Antikoloniya millətçiliyi |
| ბ. Millətlər arasında bərabərsizlik, millətin özünü dərketmə prinsipindən imtina etmək və imperialist cəhdlərin, şovinist xarakteri | 2. Pan-millətçilik |
| გ. Siyasi və iqtisadi müstəqillik uğrunda milli-azadlıq mübarizəsi, sosial inkişafa doğru cəhd göstərilməsi | 3. Liberal millətçilik |
| დ. Millət – dövlətdən imtina etmək, qohum millətlərin birləşməyə çağırılması və bir siyasi qüvvəyə çevrilmək uğrunda mübarizə | 4. Ekspansiv millətçilik |

**16.** **(2) I sütunda verilmiş səciyyələri II sütunda verilmiş beynəlxalq siyasətin əsas nəzəri məktəbləri ilə müqayisə edin:**

| I. Səciyyələr | II. Beynəlxalq siyasətin nəzəri məktəbləri |
|---|---|
| ა. Beynəlxalq siyasət mənəvi dəyərlər baxımından müzakirə olunmalıdır | |
| ბ. Beynəlxalq münaqişələr yaxud əməkdaşlıq qüvvələr balansı konsepsiyasına əsaslanır, aksent də məhz qüvvə siyasətinə yönəldilməlidir | 1. Plüralizm |
| გ. Beynəlxalq siyasətdə beynəlxalq kapitalın əhəmiyyətinə və iqtisadiyyatın gücünə diqqət verilməsi əhəmiyyətlidir | 2. Marksizm |
| დ. Qlobal siyasətdə ölkənin muxtariyyətini tanımaqla yanaşı, ölkənin açıqlıq prinsipinə aparıcı rol verilir | 3. İdealizm |
| ე. Qlobal siyasəti beynəlmiləl sinfə əsaslanan hakimiyyətin üfüqi strukturu olan model idarə etməlidir | 4.Realizm |

**17.** (1) Xəritə dünyada həddi-büluğa çatanlar tərəfindən spirtli içki istehlakını əks etdirir. Cədəvlin I sütununda verilmiş ölkələri II sütunda verilmiş spirtli içki istehlakının dərəcəsi ilə uyğunlaşdırın.




| I. Ölkə | II. Spirtli içki istehlakının dərəcəsi |
|---|---|
| ა. Rusiya | 1. Çox yüksək |
| ბ. Səudiyyə Ərəbistanı | 2. Yüksək |
| გ. Türkiyə | 3. Orta |
| დ. Kanada | 4. Aşağı |
| ე. Fransa | 5. Çox aşağı |

## Təlimat

**Səhvin düzəldilməsi (№18)**

Tapşırıqda verilmiş mətndə faktik səhvlərə yol verilmişdir (tarix, termin, ad və s.). Onları tapıb düzəldin. Tapılmış səhvi və onun düzəldilmiş variantını cavablar vərəqində verilmiş cədvələ köçürün (səhvi I sütuna, düzəldilmiş variantı - II sütuna). Nəzərə alın ki, hər bir tapılmış səhvə onun düzəldilmiş variantı ilə birlikdə 1 xal verilir. Xalların maksimal miqdarı tapşırıqlar boyunca göstərilmişdir.

**18.** **(7) Mətni diqqətlə oxuyun, səhvləri tapın və düzəldin:**

## Söz azadlığı

Cəmiyyətin inkişafı üçün siyasi, habelə şəxsi baxımdan söz azadlığı əhəmiyyətlidir. Məsələn, söz azadlığı mühafizə olunan ölkələrdə siyasi elitizm mövcuddur ki, bu da müxtəlif siyasi ideyaların birgə yaşayışı və rəqabət deməkdir. Bundan əlavə, söz azadlığı şəraitində adamlara şəxsi səviyyədə imkan verilir ki, o öz şəxsi həyatını daha yaxşı müəyyən etsin, həmvətənləri ilə ideya mübadiləsi aparsın, dünya və özü barədə rəngarəng bilik qazansın.

Bu gün söz azadlığı, başqa hüquqlarla yanaşı elə çoxcəhətli mühafizə olunmuşdur ki, bu da çox böyük tarixi prosesin nəticəsidir. Bu baxımdan 1628-ci ildə Almaniyada ilk birinci addımlardan biri atıldı, orada "hüquqlar haqqında petisiya" qəbul edildi, onun əsasında başqaları ilə birlikdə vətəndaşların məktublarının və şəxsi kağızlarının yoxlanması qadağan edildi.

Amerika Birləşmiş Ştatlarında da söz azadlığının mühafizə olunması üzrə böyük ənənə vardır. 1791-ci ildə ABŞ konstitusiyasına dəyişikliklər daxil edildi və onlar "Hüquqların memorandumu" adı ilə məşhurdur. Bu düzəlişlərdən birincisi vətəndaşlara öz fikrini bildirmək üçün azadlıq verir. Bu dəyərləri fransız siyasətçiləri qəbul edirdilər, onlar 1787-ci ilin Fransa inqilabından bir neçə ay sonra sənəd işləyib hazırladılar və bu sənəd bütün adamların qanun qarşısında bərabərliyini elan etdi.

*Mətnin ikinci səhifəsinə keçid*

Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1948-ci ildə qəbul olunmuş “İnsan Hüquqlarının Beynəlxalq Konvensiyası” bu tarixin özünəməxsus kulminasiyasıdır, onun preambulasında söz azadlığı insanın ən fundamental hüquqlarından biri kimi göstərilmişdir. Təsnifata əsasən o üçüncü nəslin hüququ sayılır.

İyirminci əsrin başlanğıcında Gürcüstan dövləti qərb hüquq mədəniyyətinin mənimsənilməsi sahəsində iri addım atdı. O cümlədən, 1917-ci ildə elan edilmiş müstəqillikdən onun itirilməsinədək  bərabərliyə və azadlığa əsaslanan ictimai qayda yaratdı.

Gürcüstanın bugünki konstitusiyası məhz bu tarixi-hüquqi varisliyə əsaslanır, o BMT tərəfindən qəbul edilmiş sənədlə razılaşdırılıb və beynəlxalq aləmdə qəbul edilmiş insan hüquqlarını tanıyır.

Gürcüstan dövləti BMT tərəfindən qəbul edilmiş sənədi bəyənmişdir, ancaq hüquqlar baxımından onun da özünəməxsus tarixi vardır. Bu baxımdan 1917-ci illərdə Müstəqil Gürcüstan Respublikasının bərabərliyə və azadlığa əsaslanan cəmiyyət yaradıması cəhdi ən böyük pozuntu idi.

***Mətnin birinci səhifəsinə qayıdış***

## Təlimat

**Səhvin düzəldilməsi (№19)**

Tapşırıqda bir mövzu ilə əlaqədar iki mətn verilmişdir. Hər iki mətndə faktik səhvlər vardır. Sizin vəzifəniz mətnləri təhlil etmək, səhvləri aşkar etmək və əvvəlcədən verilmiş sxemlə müəyyən edilmiş meyarlarla mətnləri qiymətləndirməkdir. Qiyməti cavablar vərəqindəki müvafiq yerə yazın. Xalların maksimal miqdarı tapşırıqlar boyunca göstərilmişdir.

**19.** **(6) Tapşırıqda "seçkilər" mövzusunda iki mətn verilmişdir. Mətnlərdə səhvlər ola bilər. Mətnlərlə tanış olun, onların məzmununu təhlil edin və onları təklif olunan meyarlarla qiymətləndirin.**

## I mətn:

Demokratik dövlətdə hər bir vətəndaşın öz ölkəsi üçün mühüm məsələlərin həllinə xidmət göstərmək imkanı vardır. Bunun üçün seçkilər ən mühüm fəallıqlardan biridir. Vətəndaşlar istədikləri seçki subyekti üçün səs verməklə öz siyasi hüququnu həyata keçirirlər. Seçki sistemlərindən əsasən ikisini seçirlər: proporsional və majoritar

Müasir seçkilərin demokratikliyi elə əsas prinsiplərin qorunmasına əsaslanır ki, onlar olmadan seçkilərdə xalqın əsl iradəsinin əks etdirilməsi barədə danışa bilməzdik. Açıqlıq prinsipinin, yaxud seçicinin bilavasitə səs verməsi yaxud vəzifəyə seçilməsi hüququnun, həmçinin seçicilərə nəzarət və təzyiq göstərmə və seçicinin iradəsinin sərbəst ifadə olunmasını istisna edən gizli səsvermə prinsipinin mühafizə olunması əhəmiyyətlidir.

Zaman ərzində vətəndaşların iradəsi dəyişir, buna görə də seçki müddətlərinin müəyyən edilməsi vacibdir. Gürcüstanın mövcud qanunvericiliyi ilə müəyyən edilmişdir ki, Gürcüstan parlamenti 4 il müddətinə birbaşa seçki hüququ əsasında, özünüidarəetmə isə 5 il müddətinə seçilir. Beləliklə, seçkilər arası fasilələr mövcud hakimiyyətə planları həyata keçirmək üçün vaxt qoymalı, həmçinin xalqın iradəsinin dəyişməsi üçün imkan yaratmalıdır.

*II mətnə keçid*          *Qiyməyləndirmə sxeminə keçid*

# II mətn:

Müasir demokratik dövlət quruculuğunda vətəndaşların fəallığına, onların ölkə üçün əhəmiyyət kəsb edən qərarlar qəbul edilməsi prosesinə qoşulmasına mühüm rol verilir. Seçkilərdə iştirak etmək hər bir insanın hüququ və eyni vətəndaşlıq borcudur, çünki öz səsini verməklə vətəndaş siyasi meydanda öz iradəsini əks etdirir. Proporsional seçki sistemi çərçivəsində mandatlar partiyalar tərəfindən qazanılmış səslərə proporsional surətdə bölüşdürülür.

Seçkilərin müəyyən vaxt aralığında keçirilməsini dövlət konstitusiyası müəyyən edir. Məsələn, Gürcüstan prezidentinin seçilməsi mövcud konstitusiya üzrə 4 il müddətinə, parlament seçkiləri isə 5 il müddətinə müəyyən edilmişdir. Seçki müddətini müəyyən edərkən əhalinin iradəsinin dəyişkənliyi, habelə istənilən siyasi planları həyata keçirmək üçün hakimiyyətə kifayət qədər vaxt ayrılmasının nəzərə alınması vacibdir.

Seçkilərin demokratik sayılması üçün baş prinsiplər qorunmalıdır, onun əsasında xalqın öz iradəsini real və sərbəst əks etdirməsi təmin olunur. Seçkilərin ümumiliyi prinsipi əsasında seçkilərdə qanunla müəyyən edilmiş yaşa çatmış hər bir vətəndaşın iştirak etmək hüququ vardır, bu qanunun tələblərini ödəyir. Bərabərlik prinsipi hər bir seçici üçün seçkilərin nəticələrinə təsir etməyin bərabər imkanlarını təmin edir.

***I mətnə keçid***

***Qiyməyləndirmə sxeminə keçid***

**Qiymətləndirmə sxemi ilə diqqətlə tanış olun və hər iki mətni verilmiş meyarlar üzrə qiymətləndirin. Müvafiq xalı qiymətləndirmə sxeminin hər bir meyarı üçün ayrı-ayrılıqda yazın:**

| | I. Meyarlar | II. Maksimal xal | III. Xallar verilməsi prinsipi |
|---|---|---|---|
| A. | **Seçki sistemləri** | **3** | Hər bir düzgün göstərilmiş və izah edilmiş seçki sistemi – 1 xal |
| B. | **Seçkilərin əsas prinsipləri** | **4** | Hər bir düzgün göstərilmiş və izah edilmiş seçkilərin əsas prinsipi (yaxud seçki hüquqları) – 1 xal |
| C. | **Seçki müddətləri** | **3** | Hər bir düzgün göstərilmiş seçki müddəti - 1 xal |

Sizin verdiyiniz xalları cavablar vərəqindəki cədvələ yazın:

| | | A | B | C |
|---|---|---|---|---|
| 19.1 | I mətnin qiymətləndirilməsi | | | |
| 19.2 | II mətnin qiymətləndirilməsi | | | |

***I mətnə qayıdış***

***II mətnə qayıdış***

## Təlimat

**Açıq sonluqlu tapşırıq (№20, 21, 22, 23, 24, 25.4-25.7)**

Tapşırıqda ehtimal edilən cavablar olmayan sual verilmişdir. Tapşırığın şərtini və sualı diqqətlə oxuyun. Cavab suala adekvat və konkret olmalıdır. Cavabı cavablar vərəqindəki müvafiq yerə yazın. Xalların maksimal miqdarı hər tapşırıq boyunca göstərilmişdir.

**20.** **(5) Sxem münaqişəli şəraitdə müxtəlif hərəkət modellərini və onlar üçün səciyyəvi əlamətləri əks etdirir. Sxemin boş hücrələrini doldurun:**

| Hərəkət modelləri | Hərəkət modellərinin izahı | Bərqərarlığın və partnyorluğun dərəcələri | Ondan istifadə olunması hansı hallarda məqsədyönlüdür? |
|---|---|---|---|
| **Kompromis** | 20.1 | Mötədil bərqərarlıq<br>Mötədil partnyorluq | Təcili surətdə qərar qəbul etmək istədikdə / tərəflər arasında hakimiyyət bərabərdir |
| 20.2 | Vəziyyətdən məsafə, problemə fikir verilməməsi. | Aşağı bərqərarlıq<br>Aşağı partnyorluq | Problem sizin üçün kiçik yaxud az əhəmiyyətlidirsə və vaxt qazanmaq istəyirsinizsə / Az hakimiyyətiniz vardır |
| **Alışmaq** | İkinci tərəfin mənafeyini razı salmaq əvəzinə öz mənafeyini güzəştə getmək. | 20.3 | Əgər harmoniyanı qoruyub saxlamaq sizin üçün əhəmiyyətlidirsə və nəticə ikinci tərəf üçün daha əhəmiyyətlidirsə / Dərk edirsiniz ki, ikinci tərəfin daha çox hakimiyyəti vardır |
| **Rəqabət** | 20.4 | Yüksək bərqərarlıq<br>Aşağı partnyorluq | Nəticə sizin üçün çox əhəmiyyətlidirsə və kritik şərait qərar qəbul etmək üçün təcili surətdə lazımdırsa / Sizin daha çox hakimiyyətiniz vardır |
| **Əməkdaşlıq** | Bir-birinin mənafeyini tanımaq, qarşılıqlı məqbul qərarlar qəbul etmək | Yüksək bərqərarlıq<br>Yüksək partnyorluq | 20.5 ..... / ...... |

**21.** (3) Xəritənin təhlili əsasında suallara cavab verin:




**21.1** Verilmiş xəritədə göy rənglə hansı beynəlxalq təşkilatın təsisçisi olan ölkə verilmişdir?

**21.2** Həmin təşkilatın baş mənzil-qərargahı hansı şəhərdə yerləşir?

**21.3** Verilmiş təşkilatın iki strukturunun adını çəkin.

**22.** **(5) Tapşırıqda məktəb layihəsinin məqsədinin, vəzifələrinin və həyata keçirilməsi yollarının natamam variantı verilmişdir. Məktəb layihəsinin başa çatmış forma alması üçün tapşırıqlara aşağıdakı ardıcıllıqla əməl edin:**

**I.** Cədvəldə verilmiş həyata keçirmə yollarının siyahıları ilə əlaqədar I məsələni müəyyən edin və yazın. *(Tapşırıq 22.2)*

**II.** Cədvəldə verilmiş II məsələnin həllinə imkan yaradan üç müxtəlif yolun həyata keçirilməsini yazın. *(Tapşırıq 22.3)*

**III.** Layihənin hər iki məsələsi və onların həyata keçirilməsi yollarına nail olduqdan sonra layihənin məqsədini müəyyən edin və yazın. *(Tapşırıq 22.1)*

| | |
|---|---|
| 22.1 | **Layihənin məqsədi:** *(Verilmiş məsələlərdən və onların həyata keçirilməsi yollarına nail olduqdan sonra məqsədi yazın)* |
| 22.2 | **Layihənin I məsələsi:** *(Birinci məsələnin həyata keçirilməsi yolları ilə əlaqədar olaraq konkret məsələni müəyyən edin və yazın)*<br><br>**Layihənin II məsələsi:**<br>**Şagirdlərdə təbiəti mühafizədə praktiki qabiliyyət və vərdişlərin inkişafına imkan yaradılması** |
| 22.3 | **I məsələnin həyata keçirilməsi yolları:**<br><br>1. Darvinin təkamül nəzəriyyəsi haqqında mühazirə oxumaq<br>2. Insanın və təbiətin qarşılıqlı hərəkətini əks etdirən "Bərəkət" kinofilminin nümayiş etdirilməsi<br>3. "Mən və təbiət" məktəb plakatlarının yaradılması<br><br>**II məsələnin həyata keçirilməsi yolları:** *(Verilmiş məsələnin həyata keçirilməsinin üç müxtəlif yolu)*<br><br>1.<br>2.<br>3. |

**23.** (3) Tozsoranın reklam illüstrasiyası ilə tanış olun və suallara cavab verin:




**23.1** Verilmiş illüstrasiyanı feminist perspektivdən tənqidi surətdə təhlil edin

**23.2** Müasir gürcü sosio-mədəni baxımdan göstərilən problemin aktuallığınlı müzakirə edin

**23.3** Göstərilən problemin həlli yollarını dəlillərlə müzakirə edin

**24.** **(5) Mətnlə tanış olun və aşağıda verilmiş göstərişlərə müvafiq olaraq tapşırığa əməl edin:**

"Solonun digər qanunlarından o qanun daha çox özünə məxsus və qəribədir ki, o vətəndaşa hörmət edir ki, daxili həyəcan zamanı heç bir döyüşən tərəfə dönmür, göründüyü kimi Solon istəyirdi ki, ümumi işə heç kəs soyuqqanlı olmasın və onunla razı deyildi ki, onu və onun əmlakını təhlükə gözləmirdi. Vətənin dərdi-qəmini hamı eyni cür qəbul etməlidir".

**"Paralel bioqrafiyalar" , Plutarx**

**24.1 Mətnlə əlaqədar olaraq diskussiya mövzusunu müəyyən edin və adını göstərin. Sizin seçdiyiniz diskussiya mövzusunun verilmiş mətn ilə uyğunlaşdırılması və aktuallığı haqqında mühakimə yürüdün.**

**24.2 A. Diskussiya zamanı qarşıya çıxan mövqeyi müdafiə etmək üçün iki dəlil gətirin.**

**B. Diskussiya zamanı qarşıya çıxan mövqeni rədd etmək üçün iki dəlil gətirin.**

*(Hər bir dəlil əsasən müstəqil fikir daşıyıcısı olmalıdır )*

**25.** **(8) Verilmiş mənbələri təhlil edin və suallara cavab verin:**

**Mənbə N1**

Qarşılıqlı mübarizə ilə “hə” və “yox” və onların qarşıdurması tənqiddir. Tənqid təbiətən elə şeydir ki, eyni məsələni tədqiq edərkən bir və eyni zamanda həqiqətin aşkara çıxarılması və nümayiş etdirilməsi üçün o “hə” və “yox”-u hərəkətə gətirir. O (tənqid) nə “hə”-yə, nə də “yox”-a ayrı-ayrılıqda axtarışların və tədqiqatların bütün ağırlığını bir-birindən ayrı qoymağa imkan vermir.  Əgər öküzü yalnız bir tərəfə çəksən, araba düz gedə bilməz, belə ki, həqiqətin tədqiqi birtərəfli ola bilməz.

**“İveria” qəzeti, İlya Çavçavadze, 1837-1907**

**Mənbələrə keçid:** 2; 3; 4

**Tapşırıqlara keçid:** 25.1; 25.2; 25.3; 25.4-25.7

**Mənbə N2**

“Onun oxumaq qabiliyyəti çox təəccübləndirirdi... O, Davidin psalmasını və səslə oxunan kilsə elmini tezliklə mənimsədi; Gürcü dilində bütün milli yazıları öyrəndi, həmçinin, bir çox dillərdə savadlılığı öyrəndi, ilahi kitabları əzbər mənimsədi. Ancaq, bu dünyanın filosoflarının müdrikliyini yaxşı öyrəndi və yaxşı nə söz gördüsə qəbul etdi, pis şeyləri kənara atdı”

**„Qriqol Xandztelinin həyatı“, Georgi Merçule, X əsr**

**Mənbələrə keçid:** 1; 3; 4

**Tapşırıqlara keçid:** 25.1; 25.2; 25.3; 25.4-25.7

**Mənbə N3**

“Necə olur ki, hansısa şəxsiyyətin fikirləri doğurdan da ehtimat qazanır? Onunlamı ki, onun zəkası həmişə onun baxışlarının və hərəkətlərinin tənqidi üçün açıq olmuşdur; o, özünə qarşı deyilə bilən hər şeyi diqqətlə dinləyir, öz fikirlərini düzəldir, etirazın nə dərəcədə ədalətli olduğunu həvəslə dərk edir və imkan olduqda öz rəylərində olan səhvi, yalanı başqalarına izah edir. Bu fikir elə adamındır ki, o ancaq etimada layiqdir, o dərk edir ki, əşyanın tam bilinməsinin yeganə vasitəsi ondan ibarətdir ki, onun haqqında bütün mümkün rəylərin deyildiyini diqqətlə dinləmək, insanların ona baxa biləcəyi nöqteyi-nəzərlərdən öyrənməyə tam yaxınlaşmaqdır. Ağıllı adamlar başqa yolla deyil, məhz bu yolla müdrikliyə nail olmuşlar; başqa yol yoxdur və insan ağlının xüsusiyyətləri üçün o mümkün deyildir.

Öz rəyini daim düzəltmək və tamamlamaq digər adamların rəyləri ilə, müqayisə yolu ilə, insanda təcrübədə öz rəyini tətbiq etmək şübhəsi yaratmır, əksinə ona qarşı ədalətli etimadın yeganə möhkəm əsasını təşkil edir.

**“Azadlıq haqqında”, Con Stüart Mil, 1806-1873**

**Mənbələrə keçid:** 1; 2; 4

**Tapşırıqlara keçid:** 25.1; 25.2; 25.3; 25.4-25.7

**Mənbə N4**

"Yəqin ki, siz totalitar təfəkkürün sadəliyinin nə qədər cazibədar və inandırıcı olduğunu təsəvvür edə bilməzsiniz. O daxildən insanı yeyir və beyninin dərinliklərinə işləyir. Sadəlik həqiqətən cazibədardır. Onun cazibədarlığının məğzi nədən ibarətdir? Ondan ki, o sizə özünüzü ağıllı, dünyada hər şeyi başa düşən, əvəzində sizdən heç bir səy tələb etməyəndir. Axı insan təbiətən tənbəldir və ona vəd etsən ki, heç bir əmək, gərginlik sərf etmədən o, mühüm bir şeyə çevriləcəkdir, yaxud o, qarşı dura bilməyəcək, buradaca hər iki əlləri ilə başını tutacaqdır. Bu aldatma adamlara yalnız Sovet İttifaqında təsir göstərmirdi".

**"Boğulmuş fikir", Merab Mamardaşvili, 1930-1990**

**Mənbələrə keçid:** 1; 2; 3

**Tapşırıqlara keçid:** 25.1; 25.2; 25.3; 25.4-25.7

**25.1 Mənbə N2-yə əsasən:**

ა. Qriqol Xandzteli Tao-Klarcetidə kilsə və monastrların tikintisi işində böyük rol oynamışdır

ბ. Qriqol Xandzteli dini mətnləri yaxşı bilirdi ki, bu da fəlsəfi mətnləri anlamağa imkan yaradırdı

გ. Fəlsəfi mətnlər dini hisslər təlqin edir, buna görə Qriqol Xandzteli onları oxumaqdan çəkinirdi

დ. Qriqol Xandzteli dini mətnlərlə yanaşı fəlsəfi mətnləri də tanıyır və bu onun biliyini kamilləşdirirdi

**Mənbələrə keçid:** 1; 2; 3; 4

**Tapşırıqlara keçid:** 25.2; 25.3; 25.4-25.7

## 25.2 Con Stüart Milin fikirlərinə hansı fikir uyğun gəlir?

ა. Fikri etibarlı saymaq olar, əgər o eynicür imtahandan keçər, fikrin əks fikirlə qarşıdurmasından keçərsə

ბ. Üzbəüz fikirlərin çoxluğu əksər hallarda cəmiyyətdə xaos yaradır

გ. Fikir ayrılığı inkişaf üçün faydalıdırsa, buna baxmayaraq elə fikirlər vardır ki, onları ümumiyyətlə ifadə etmək düzgün deyildir

დ. Hər hansı fikrin başqalarını təhqir etsə də açıq deyilməsi hüququ vardır

**Mənbələrə keçid:** 1; 2; 3; 4

**Tapşırıqlara keçid:** 25.1; 25.3; 25.4-25.7

**25.3 Mənbə N4-də deyilmiş fikirlərdən hansı düzgündür:**

ა. Totalitar sistemdə yaşayan adam tənbəlləşmişdir və onun manipulyasiyaları sadədir

ბ. Gürcü intellektual ənənəsi digər ölkələrin ənənələrindən öz cürətli açıqlığı ilə fərqlənir

გ. Elə vəziyyət vardır ki, insan özünü intellektual üstünlüyün hər cür zorakılığına qarşı hiss edir və bu təbii hadisədir

დ. Totalitar fikrin sadəliyi insanın tənbəlliyinə və onun arzularına əsaslanır, özünü heç bir zorakılıq olmadan ağıllı saymaq arzusu vardır

**Mənbələrə keçid:** 1; 2; 3; 4 **Tapşırıqlara keçid:** 25.1; 25.2; 25.4-25.7

**25.4** N1, N2 və N3 mənbələrdən istifadə etməklə tənqidi fikir anlayışını müəyyənləşdirin.

**25.5** İlya Çavçavadzenin və Con Stüard Milin fikirləri Mamardaşvilinin təsvir etdiyi qavrayış modelləri ilə hansı nisbətdədir?

**25.6** Merab Mamardaşviliyə görə totalitar təfəkkürün cazibədarlığı onun sadəliyində və insan təbiətinin səciyyəvi tənbəlliyindədir. Sovet işğalı dövründə Gürcüstanda bu tipli təfəkkürün yayılmasına yenə hansı amilin səbəb olduğunu müzakirə edin?

**25.7** Fikrinizcə, Mamardaşvili tərəfindən təsvir olunmuş totalitar təfəkkür qaydası müasir gürcü sosio-siyasi həyatında özünü necə əks etdirmişdir? Müzakirə zamanı iki misal gətirin.

Mənbələrə keçid: 1; 2; 3; 4

Tapşırıqlara keçid: 25.1; 25.2; 25.3